# “Teknofest Azərbaycan” festivalına həm ölkədə, həm də xaricdə maraq böyükdür

***“Teknofest” Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Festival 2018-ci ildən etibarən hər il keçirilir və “Türkiyə Texnologiya Komandası” – T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən təşkil olunur.***

Bu il isə bu mühüm texnoloji tədbirə Bakı evsahibliyi edir. “Teknofest Azərbaycan” festivalı dünən Bakı Kristal Zalı və Dənizkənarı bulvar ərazisində öz işinə başladı və bu gün də davam edəcək. Festivalın təşkilatçıları “Türkiyə Texnologiya Komandası” - T3 Fondu, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, eləcə də Türkiyənin Sənaye və Texnologiya Nazirliyidir.

“Teknofest Azərbaycan” çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, “Smart Qarabağ” Hakatonu, “Take Off” Azərbaycan Startap Sammiti və “Rocket League” video oyunu üzrə Avropa Kiber İdman Kuboku təşkil olunacaq.

Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototiplərin və STEM-layihələrin nümayiş olunması, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi nəzərdə tutulur.

Festivalın əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin “Türk Ulduzları” və “Solo Türk” aerobatika komandalarının nümunəvi pilotaj uçuşları, böyük səhnədə incəsənət xadimlərinin çıxışları, şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar və s. daxildir.

Əlbəttə, bu cür texnoloji tədbirlərin məqsədi aviasiya, kosmik sənaye və rəqəmsal iqtisadiyyat kimi sahələrin populyarlaşmasına töhfələr vermək, yerli və xarici sahiblarları bu sahənin inkişafına cəlb etməkdir. “Teknofest”, eyni zamanda, gənc mühəndislərin bilik və bacarıqlarını üzə çıxarmaq, eləcə də milli texnologiyaları ölkədə və onun hüdudlarından kənarda geniş ictimaiyyətə təqdim etmək məqsədi güdür. Ona görə də festivala istər ölkə daxilində, istərsə də xaricdə maraq böyükdür. Tədbirdə ümumilikdə 200 mindən çox ziyarətçinin iştirak edəcəyi gözlənilir. Bunlardan 500 nəfərə yaxını 33 xarici ölkədən gələn qonaqlar olacaq.



Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan bu cür beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində böyük təcrübəyə malikdir. Zaman-zaman Bakıda humanitar forumlar, Birinci Avropa oyunları, İslam Həmrəylik oyunları, “Avroviziya” və s. kimi tərdbirlər keçirilib. Həmişə də bu tədbirlərdə iştirak etmək və tamaşaçı olmaq üçün dünyanın onlarla ölkəsindən yüzlərlə qonaq Bakıya gəlib. Bakı isə, təbii ki, özünün ənənəvi qonaqpərvərliyini nümayiş etdirərək qonaqları yüksək səviyyədə qarşılayaraq yola salıb.

Bu dəfəki tədbirin də, həmişə olduğu kimi, yüksək səviyyədə başa çatacağına əminik. Şübhə etmirik ki, “Teknofest” həyəcanını yaşamağa gələnlər Bakıdan razılıq və minnətdarlıq hissləri ilə ayrılacaqlar.

***Məhərrəm SƏFƏRLİ,***
***Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

Xalq qəzeti .- 2022.- 27 may.- S.9.